*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 386-390* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.386*

# Plakatın çapa hazırlanması

**Sevinc Qurbanova**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası. Azərbaycan.
E-mail: sevincadra1@mail.ru

**Annotasiya.** Məqalədə plakatın çapa hazırlanması qaydaları haqqında məlumat öz əksini tapmışdır. Plakatın yaradıcısı işə başlamazdan əvvəl onun harada asılacağını fikirləşməlidir. Başqa sözlə desək, hər bir müəllifin ərsəyə gətirdiyi plakatın harada yerləşdirilməsi barəsində müxtəlif ideyaları olur. Bu da təbiidir. Belə ki, plakatın dizayn həllinin bəzi məqamları onun harada yerləşdirilməsindən asılı olur.
Çox vaxt görülən işin səmərəliliyini və kütləviliyini artırmaq üçün plakatın dizaynını standart formalı vərəqlər üçün hazırlayırlar. Əgər hazırladığınız plakatın ölçü baxımından çox da böyük olmasını istəmirsinizsə, deməli, onun tipoqrafiyada çapından vaz keçmək niyyətindəsiniz. Bu halda, belə plakatlar üçün İSO A1-A5 formatı seçməklə, onu müstəqil olaraq printerdə çap edə bilərsiniz.
Unutmayın ki, çap vaxtı bəzi rənglər tərif olunur və dizaynla uyğun gəlmir. Bu da xoşagəlməz mənzərənin yaranmasına səbəb olur. Odur ki, lap əvvəldən düzgün rəng palitrasından istifadə etmək lazımdır. Bu halda sizin çap prosesində dəqiqliyinə sona qədər nail olunmayan dizayna bağlılığınız azalacaqdır. Bunun üçün CMYK modelindən istifadə məsləhət görülür.
**Açar sözlər:** plakat, təsvir, dizayn, qrafika, obraz, çap

**Məqalə tarixçəsi:** göndərilib – 03.02.2023; qəbul edilib – 27.02.2023

# Preparing the poster for the printing

**Sevinj Gurbanova**
Azerbaijan State Academy of Arts. Azerbaijan.
E-mail: sevincadra1@mail.ru

**Abstract.** In the article the information about the rules for preparing the poster for publication is reflected. Before starting work, the creator of the poster should think about where it will be hung. In other words, each author has different ideas about where to place the poster he has created. And it is natural. Thus, some aspects of the design solution of the poster depend on where it is placed.
In order to increase the efficiency and massiveness of the performed work, the design of the poster is prepared for sheets of standard shapes. If you do not want the poster you are making to be too large in size, then you intend to give up its printing in typography. In this case, you can print it on a printer independently by choosing the ISO A1-A5 format for such posters.
Don’t forget that during the time of printing some colors are distorted and do not match the design. It also leads to the appearance of an unpleasant picture. Therefore, it is necessary to use the right color palette from the very beginning. In this case, your commitment to the design, the accuracy of which in the printing process was not achieved to the end, will be reduced. That is why, to use the CMYK model is recommended.
**Keywords:** poster, description, design, graphics, image, print

**Article history:** received − 03.02.2023; accepted − 27.02.2023

## Giriş / *Introduction*

Çox qədim tarixə və özünəməxsus bədii ənənələrə malik olan Azərbaycan təsviri sənətinin XX əsrə təsadüf edən inkişaf mərhələsi ilk növbədə onun tərkibinin fərqli sənət sahələri və janrlarla zənginləşməsi ilə tarixə qovuşmuşdur. Onun əvvəllər mövcud olmayan sahələrindən biri də plakat olmuşdur.

Plakatın ictimailəşdirilməsi üçün bir neçə suala cavab tapmağa ehtiyac duyulur: Plakat harada yerləşdiriləcək? Plakat müəllifinin saytında? Bəlkə şəhər daxilində divarlara yapışdırılacaq? Yoxsa, məktəbin elanlar lövhəsində? Əgər plakatın çap olunması nəzərdə tutulubsa, bu halda bəzi məsələlərin mütləq nəzərə alınmasına ehtiyac duyulur.

## Əsas hissə / *Main Part*

Plakatın yaradıcısı işə başlamazdan əvvəl onun harada asılacağını fikirləşməlidir. Başqa sözlə desək, hər bir müəllifin ərsəyə gətirdiyi plakatın harada yerləşdirilməsi barəsində müxtəlif ideyaları olur. Bu da təbiidir. Belə ki, plakatın dizayn həllinin bəzi məqamları onun harada yerləşdirilməsindən asılı olur.

Odur ki, əgər yeni plakat digər plakatların arasında asılacaqsa, onda onun ümumi fonda seçilməsi və diqqəti cəlb etməsi üçün daha iri ölçüdə hazırlamaq məsləhət görülür. Yox, əgər plakatın demək olar ki, boş olan divarda yerləşdirilməsi planlaşdırılıbsa, onda yaxşı nəticə əldə etmək üçün plakatın kiçik ölçüdə çapı və bir neçəsinin yan-yana yapışdırılması məsləhətdir.

Çox vaxt görülən işin səmərəliliyini və kütləviliyini artırmaq üçün plakatın dizaynını standart formalı vərəqlər üçün hazırlayırlar. Əgər hazırladığınız plakatın ölçü baxımından çox da böyük olmasını istəmirsinizsə, deməli, onun tipoqrafiyada çapından vaz keçmək niyyətindəsiniz. Bu halda, belə plakatlar üçün İSO A1-A5 formatı seçməklə, onu müstəqil olaraq printerdə çap edə bilərsiniz.

Unutmayın ki, çap vaxtı bəzi rənglər təhrif olunur və dizaynla uyğun gəlmir. Bu da xoşagəlməz mənzərənin yaranmasına səbəb olur. Odur ki, lap əvvəldən düzgün rəng palitrasından istifadə etmək lazımdır. Bu halda sizin çap prosesində dəqiqliyinə sona qədər nail olunmayan dizayna bağlılığınız azalacaqdır. Bunun üçün CMYK modelindən istifadə məsləhət görülür.

CMYK rəngləri (ingilis dilində Cyan, Magenta, Yellow, black) – mavi, tünd bənövşəyi, sarı və qaradan ibarətdir. Printerdə çap zamanı CMYK modelindən istifadə olunur. Ona görə də çap olunan məhsulun monitorda göründüyü kimi olduğunu istəyirsinizsə, plakatı elə əvvəlcədən CMYK-da işləmək məsləhətdir. RGB və CMYK-ı müqayisə etməklə buna əmin olmaq mümkündür.

Plakatın hazırlanmasında şrift seçimi də böyük rol oynayır. Odur ki, bu seçimdə uzaqdan daha aydın görünən şriftlərə üstünlük vermək lazımdır. Ola bilsin ki, siz plakatda özünüzün hansısa xəyali şriftinizdən istifadə etmək istəyirsiniz. Professionallar bu cür "arzu"ların reallaşdırılmasına qarşı çıxırlar. Çünki doğrudan da, belə uydurma-təxəyyüldən qaynaqlanan şriftlər bir qayda olaraq uzaqdan pis oxunurlar.

Əsas mətn üçün 24-48 punktlu şriftlərdən istifadə etmək olar. Belə ki, daha az ölçülü şriftlər mətnin nəinki uzaqdan, hətta bir neçə metrdən oxunmasını çətinləşdirir və bu da bütünlükdə, ətrafdakı insanların plakata diqqət yetirməməsinə səbəb olur.

Bir plakatın dizaynında istifadə olunan şriftlərin fərq sayı üçdən çox olmamalıdır. Belə ki, şrift seçimi üçün dəfələrlə sınaqdan çıxarılmış qaydadır. Bunun da başlıca məqsədi dizaynın artıq dərəcədə yüklənməsindən uzaq olmaqdır. Ona görə də hər bir plakat dizaynını yaradanın

qarşısında düzgün seçim etmək vəzifəsi durur. Bəs plakat üçün şrift seçərkən nəyi nəzərə almaq lazımdır? Dizayn prosesində aşağıdakılar nəzərə alınmalıdır:

- Plakatın başlığında dekorativ qalın şriftdən istifadə olunmalıdır;
- Yarımbaşlıqlarda həmin üsluba uyğun gələn daha sadə şrift seçilməlidir;
- Əsas mətndə səliqəli və asan oxunan şriftdən istifadə məsləhət görülür.

Ancaq qaydaların həm də onların pozulması üçün mövcud olduğu məsələni də unutmaq olmaz. Belə ki, təcrübədə elə hallar olur ki, üçdən artıq şriftdən istifadənin də müsbət nəticələr verdiyini görmək olur. Məsələn, plakatın dizaynında tipoqrafika mərkəzi yer tutanda, buna şahidlik etmək mümkündür. Elə musiqi festivalı üçün nəzərdə tutulmuş plakatın dizaynında çoxsaylı şriftdən istifadənin uğurlu nəticəsini görmək olar. Bu halda onların bütövlüyünü istifadə olunan rənglərin bir-biri ilə ahəngdarlıq təşkil edən çalarların yaxınlığı-oxşarlığı şərtləndirir.

Plakatın uğurla yayılmasını şərtləndirən səbəblərin başlıcası onun hansı ölçüdə təqdim olunmasından asılıdır. Kompüterin yaddaşına ötürülmüş qeyri-dəqiq və zəif-kiçik ölçülü təsvirlər bir qayda olaraq istifadəçiləri razı salmır. Odur ki, onların yalnız iri ölçüdə təqdimatına üstünlük vermək lazımdır. Yəni belə yayımların ölçüsü 300 dpi (bir dyümə düşən nöqtə sayı) qədər olmalıdır ki, təsvirlər bulanlıq yox, daha aydın görünsünlər. İstifdəçilərə xatırlatmaq istəyirik ki, Venngage-dən hər kəs HD PNG və yaxud PDF formatda plakatları götürüb uğurla praktikada tətbiq edə bilərlər.

Poliqrafiyada bəzi hallarda rast gəlinən çap çıxıntıları və yaxud "kəsim həddi"nə yetişmə təsvirin müəyyən hissəsinin vərəqin sərhəddini aşması ilə baş verir. Əgər çapa hazırlanmış plakatın dizaynında təsvir "kəsim həddi"ndədirsə, onda printer çap prosesində avtomatik olaraq ümumi görüntünün dörd tərəfində onu çərçivəyə alacaq ağ nazik zolaq saxlayacaqdır. Yox, əgər təsvir "kəsim həddi"ni keçmək halındadırsa, onda plakatı dizaynda nəzərdə tutulan ölçüdən daha iri formatda çap etmək və sonra kənarlarının artığını kəsmək lazımdır. Plakatı çıxıntısız çap etmək üçün əvvəlcədən bunun baş verməməsini şərtləndirən ölçülərdən istifadə etmək məsləhət görülür. Başqa sözlə desək, vərəq üzərində dizaynın qurtardığı sərhəd müəyyənləşdiriləndə, çapdan sonra artıq olan yerləri kəsmək də olar.

Şəbəkələrdə paylaşmaq məqsədilə yaradılan plakatların dizayn həlli zamanı müəlliflərin sərbəstliyi poliqrafiya üçün hazırlanan plakatlara nisbətən daha çox olur. Bu da hər bir yaradıcıya sözün əsl mənasında daha maraqlı dizayn həlli tapmaq fürsəti verə bilir. Bununla belə, bir neçə qayda var ki, onlara riayət edilməsi məsləhət görülür.

Əgər hər bir plakatın sosial şəbəkələrdə səliqəli – qüsursuz görünməsi üçün, onları istifadə olunan platforma boyu hərəkəti üçün optimallaşdırmaq lazımdır. Bu halda müxtəlif platformalar üçün plakatın müxtəlif variantlarının hazırlanması da mümkündür. Bütünlükdə, onlara mobil qurğulardan baxmaq üçün onların kitab oriyentasiyalı – yönümlü hazırlanması uğurlu hesab olunur. Brauzerin mobil versiyasında insanlar üfüqidən daha çox, şaquli baxışa üstünlük verirlər.

Yox, əgər siz reklam kompaniyasını və sənaye təbliğatı aksiyasını Twitter, və yaxud Facebook-un köməkliyi ilə həyata keçirirsinizsə, onda təqdimat üçün bannerdən istifadə məsləhət görülür. Bu halda albom formatından istifadələrin də müsbət nəticələr verdiyini təcrübə təsdiqləmişdir.

Əgər siz plakatları elektron poçta ilə yaymağı planlaşdırırsınızsa, onda bir kvadrat metrin elektron həllinin 1080x1080 dpi (bir dyümə düşən nöqtə sayı) olması münasib sayılır. Belə ölçülər instagram üçün yaradılan plakatlar üçün də yararlıdır.

Sosial şəbəkələr üçün nəzərdə tutulan plakatlarda iri və qalın şriftlərdən istifadə etmək müsbət nəticələri şərtləndirir. Unutmaq olmaz ki, xəbərləri müşayiət edən təsvirlər çox vaxt, xüsusilə də onlara mobil vasitələrdə tamaşa edəndə kiçik görünürlər. Odur ki, istifadəçilərin diqqətini cəlb etmək üçün az söz və iriölçülü şrift seçmək məsləhət görülür.

Təcrübəli internet istifadəçiləri yəqin ki, eyni fotoların müxtəlif kontekstdə tətbiqinə rast gəliblər. Müəyyən mövzuları əhatə edən və ənənəviləşən belə foto təsvirlərin (satışı kütləviləşən stoklar) plakat müəllifini dizaynın pis

sonluğuna aparıb çıxaracağı birmənalıdır. Yox, əgər büdcə məhuddursa, onda dizayn həllində fotobankdan istifadə etməkdən başqa yol qalmır. Bu halda müəllif yaradıcı fantaziyasına tapınmaqla, stok fotolarına bənzərsizlik qata bilər.

İş prosesində qarşıya çıxan çətinlikləri aradan qaldırmaq və plakatın dizaynını yaxşılaşırmaq üçün nişanlar yaxşı yardımçı ola bilərlər. Başqa sözlə desək, siyahıdakı maddələri və yaxud mətnin özünü nişanlarla əvəz etmək olar. Belə ki, nişanlar ideyalarını gözəl ifadə – illüstrə edə bilirlər. Məsələn, kosmosa həsr olunmuş məlum stok fotolarına sadə bayraqlı nişanlar əlavə etməklə onları unikal plakata çevirmək mümkündür.

Plakat dizaynı üçün nişanların seçilməsi elə də asan olmadığından, bu yöndə də aşağıdakı tövsiyələrə əməl etmək məsləhət görülür:

- Eyni üslublu (xətlərin eyni qalınlıqda olması, sadə və yaxud da detallaşdırılmış dizayn, yalnız kontur və yaxud da içərisi doldurulmuş nişanlar) nişanlardan istifadə edin;
- Nişanlardan qənaətlə istifadə edin, hazırladığınız dizayna doldurulmamış sahələrin hesabına "nəfəs" almağa imkan verin;
- Əgər mətn nişanlarla əvəzlənibsə, onda onların əhəmiyyətinin hamıya aydın (Məsələn, "Twitter" sözünün bu sosial şəbəkənin nişanı ilə əvəzlənəndə) olduğuna əmin olun.

Yuxarıda deyilənlərə onu əlavə edək ki, Unsplash və Pexels yaxşı fotoların toplandığı gözəl mənbədir.

## Nəticə / *Conclusion*

Azərbaycan plakat tarixinin duyulası bir hissəsinin ölkədə sovet-kommunist rejimi dövrünə təsadüf etdiyinin qarşılığında, onun məzmununda ideoloji məqamların mövcudluğunu təbii saymaq olar. Buna baxmayaraq, həmin sahədə fəaliyyət göstərən rəssamların müxtəlif nəsilləri bu ideoloji yükü maraqlı dizayn formaları ilə ictimailəşdirməyə çalışmışlar. Başqa sözlə desək, ideoloji təbliğatla bağlı olan bu plakatların hər birində özünəməxsus sənətkarlığın ifadəsinə rast gəlmək mümkündür. Həm sovet dönəmində, həm də müstəqillik dövründə məkanımız üçün daha aktual olan plakatlar yaradılmışdır ki, onların da bədii həlli bənzərsizliyi ilə seçilir. Milli bədii dəyərə çevrilmiş həmin qrafik nümunələrin zamansızlığa qovuşmasını şərtləndirən başlıca səbəb isə onların hər birində müəlliflərin bir-birindən maraqlı qrafik dizayn həlli nümayiş etdirmələri olmuşdur.

## Ədəbiyyat / *References*


1. Azərbaycan incəsənəti. Müəl. heyəti: Ə.Salamzadə, N.Rzayev, K.Kərimov, R.Əfəndiyev, N.Həbibov. – Bakı: Maarif, 1977.
2. Əliyev, R. Plakatda rəsmin rolu. – Bakı: [Delta Uni MMC], 2022, şək., ill., 26 sm.
3. Həbibov, N. Azərbaycan sovet rəssamlığı. – Bakı, 1966.
4. İbrahimov, T. Azərbaycan plakatı bu gün (1994-2002). – Bakı, 2003.
5. İbrahimov, T. Azərbaycan plakt sənəti. – Bakı, 2004.
6. Гаджиев, П.А. Азербайджанская советская графика. – Баку: Изд-во АН АзССР, 1962.

## Подготовка плаката к печати

**Севиндж Курбанова**
Азербайджанская государственная художественная академия. Азербайджан.
E-mail: sevincadra1@mail.ru

**Резюме.** В статье дается информация о правилах подготовки плаката к печати. Прежде чем создатель плаката приступит к работе, необходимо подумать о том, где он будет демонстрироваться. Иными словами, у каждого автора разные представления о том, где разместить свой плакат. Это вполне естественно, так как некоторые аспекты дизайнерского решения плаката зависят от места его размещения. Часто для повышения оперативности и массовости выполняемой работы дизайн плаката готовят на листах стандартной формы. Если автор не хочет, чтобы плакат был слишком большим по размеру, то он должен отказаться от его печати в типографии. В этом случае можно распечатать его самостоятельно на принтере, выбрав для таких плакатов формат ISO A1-A5.
Необходимо также обратить внимание, что некоторые цвета искажаются во время печати и могут не совпадать с дизайном. Это создает неприятную картину. Поэтому необходимо с самого начала использовать правильную цветовую палитру. В этом случае автор будет менее привержен дизайну, который не совсем точен в процессе печати. Для этого рекомендуется использовать модель CMYK.
**Ключевые слова:** плакат, иллюстрация, дизайн, графика, образ, печать